# AZƏRBAYCANDA TURİZM SƏNAYESİ: MÜASİR VƏZİYYƏTİ, PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

*(əvvəli ötən sayımızda)*

Respublika ərazisində fəaliyyət göstərən ***sanatoriya-kurort müəssisələrinin* və onların sayında olan uşaq sanatoriyalarının sayına nəzər salsaq**, bu göstəricilərin müvafiq olaraq 32 və 12-yə çatdığını cədvəl 1-dən əyani görmək mümkündür. Məlumatların araşdırılması deməyə əsas verir ki, sanatoriyalarda çarpayıların sayında ötən hesabat ilində azalma baş versə belə, ümumi say əvvəlki illərlə müqayisədə artaraq 32-yə çatmışdır. Təbii ki, ölkəyə müalicə almaq və turist kimi gəzməyə gələnlərin sayının çoxalması göstərilən sanatoriya-kurort müəssisələrində çarpayıların sayının artırılmasından və bu təşkilatların göstərdiyi xidmətlərin keyfiyyətinin yüksəldilməsindən birbaşa asılı olacaqdır.

**Ölkəmizdə turizm sənayesinin sürətli inkişafında önəmli rol oynayan amillərdən biri** də *otelçilik fəaliyyətidir*. Başqa **sözlə,** otel və mehmanxana tipli obyektlərin sayı, bu məkanlarda göstərilən xidmətlərin keyfiyyəti və beynəlxalq standartlara cavab verməsi gələn turistlərin məmnunluğuna səbəb olur. Son 10 ildə respublikada mehmanxana (otel) və mehmanxana tipli obyeklərin sayının araşdırılması bu qəbildən olan təsərrüfat vahidlərinin artıma meyilli olduğ**unu göstər**ir (cədvəl 2).

Otelçilikdə ümumi iqtisadi göstəricilərin müqayisəsindən müəyyən etmək mümkündür ki, 2021-ci ildə burada yerləşdirilən ölkə vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan **şəxslərin miqdarında da çoxalma** vardır. Bu amil**ə gö**rə turizm sənayesi üzrə inkişaf mərhələsində tanınmış beynəlxalq şirkətlərin ölkəmizə marağı daha da artmaqdadır. AR-də sahibkarlıq fəaliyyətinə yaradılmış əlverişli şərait, eləcə də iş adamlarına **əlverişli şəraitin yaradılması və dövlətimizin dəstəyi otelçiliyə məş**hur firmaların diqqətini yüksəltdi. Hazırda **dünyanın 8 şöhrətlənmiş brendi artıq Bakı şəhərindədir. Bu gün** "Mariott"(01.04.21), "Four Seasons"(03.09.21), "Faimont" (24.06.13), "Kempinski" (10.05.11), "Jumeirah" (28.12.11), "Sheraton" (2014), "Hyatt" (19.05.95), "Hilton" (03.10.11) kimi otellərin uğurlu fəaliyyəti ölkəmizdə davam etməkdədir. Özlərinin cəzbedici interyeri və gözəlliyi ilə seçilən bu otellər 5 ulduzlu olmaqla rahatlığı və yüksək keyfiyyətli xidmətlərin göstərilməsilə turistləri cəlb edir, onların sayının artmasına müsbət təsir göstərirlər. Ölkəmizin dilbər guşələri hesab edilən Qəbələdə, Şəkidə, Qubada, Şimal-Qərb bölgəsində, Cənub zonasında, xüsusilə Lerikdə beynəlxalq standartlara cavab verən otellərin istifadəyə verilməsi buraya turistlərin gəlməsində böyük rol oynayır. Ölkə başçısının təşəbbüsü və diqqəti nəticəsində Şahdağ Turizm Mərkəzinin 2012-ci ildə yaradılaraq fəaliyyətə başlaması turizm sənayesinin mövsümilik anlamına son qoydu. Ölçüsü 128 ha olan bu qış turizm bazasına turistlərin ilin bütün fəsillərində məmnunluqla axını onun müasirliyinin və beynəlxalq standartlara cavab verməsinin göstəricisidir. Azərbaycanın Şahdağ yay-qış turizm kompleksi özlüyündə 5 oteli və ailəvi otel-evləri cəmləşdirməklə *turagent və turoperatorlardır*. AR-in "Turizm haqqında" Qanunvericiliyə uyğun olaraq turagentlər turizm xidmətlərinin və ya turoperatorlar tərəfindən hazırlanan turizm zərfinin satışını həyata keçirməkdə vasitəçilik edən fiziki və ya hüquqi şəxslərdir. Ölkəmizdə 2021-ci ilin məlumatlarına istinadən turagent və turoperatorların rəsmi sayı 2-si dövlət və 148-i qeyri-dövlət mülkiyyəti olmaqla 150-yə çatır. Özəl turagent qurumlarından 134-ü xüsusi olmaqla 11-i xarici və 3-ü birgə müəssisələrdir. Baxılan dövrdə Azərbaycana turagent və turoperatorların vasitəsilə qəbul edilmiş və göndərilmiş turistlərin sayı 16324-ə çatır. Ondan əvvəlki 2019 və 2020-ci hesabat illərində bu göstərici müvafiq olaraq 442 və 300 vahid təşkil etmişdir.

AR Sərhəd Xidmətinin məlumatına istinadən ötən ildə ölkəmizə 178 ölkədən 1602,6 min əcnəbi və vətəndaşlığı olmayan şəxslər **gəlmişdir. Gələn turistlərin** sayı əvvəlki illə müqayisədə 2 dəfə çox olmuşdur. Respublikamızın Dövlət Gömrük Komitəsinin məlumatlarına istinadən son dövrlərdə AR-ə gələn turistlərin dinamikliyinin təhlili onu göstərir ki, ölkəmizə gələnlərin sayı artıma təmayüllüdür (cədvəl 3).

*Cədvəl 3*

***Respublikaya* gələn turistlərin dinamikası**

| № | Ölkələr | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| 1 | Rusiya Federasiyası | 853082 | 878391 | 932198 | 225214 | 257959 | 446831 |
| 2 | Türkiyə Cümhuriyyəti | 301553 | 291259 | 305404 | 160513 | 197472 | 311880 |
| 3 | **İran İslam Respublikası** | 362597 | 240483 | 255571 | 72796 | 124877 | 170533 |
| 4 | Səudiyyə Ərəbistanı | 33278 | 72935 | 106994 | 11945 | 8826 | 96231 |
| 5 | Gürcüstan | 537710 | 610124 | 725174 | 184253 | 62512 | 82225 |
| 6 | Hindistan | 14173 | 39013 | 65058 | 12769 | 5695 | 60731 |
| 7 | Pakistan | 17558 | 41268 | 46586 | 7774 | 2940 | 51700 |
| 8 | BƏƏ | 102360 | 93835 | 68289 | 7951 | 17275 | 41085 |
| 9 | Qazaxıstan | 36115 | 37679 | 47495 | 8497 | 6916 | 30350 |
| 10 | **Özbəkistan** | 18722 | 18288 | 23471 | 5282 | 4206 | 26309 |
| 11 | Digər ölkələr | 414843 | 521602 | 591664 | 98766 | 213774 | 284725 |
| 12 | Cəmi | 2691991 | 2844877 | 3167904 | 795760 | 790062 | 1602600 |




**Diaqram 1. Respublikamıza 2022-ci ildə gələn turistlərin ölkələr üzrə ilk onluğu (min nəfərlə)**

Məlumatlara nəzər yetirsək, bütün ölkələr, eləcə də regionlar üzrə ölkəmizə gələn turistlərin sayında kəskin azalma qeydə alınmışdır. Yaranmış belə vəziyyət qoyulan məhdudiyyətlər və qlobal epidemioloji vəziyyətin pisləşməsi ilə izah oluna bilər. Gələn turistlərin 2022-ci ildə regionlar üzrə təhlilinə əsasən Azərbaycan Respublikasına ən çox Rusiya Federasiyası (RF), ildə 72823 nəfərə çatmışdır. Ötən ildə gələn turistlərin regionlara görə araşdırılması onu göstərir ki, BƏƏ, İraq, İsrail, Oman, Qətər, Misir, İordaniya və digər Yaxın Şərq ölkələrindən gələnlərin sayı 228294 nəfər təşkil etmişdir. Gələn turistlərin regional təhlilinə əsaslansaq, 2-ci və 3-cü yerlərdə müvafiq olaraq Şərqi Avropa və Cənubi Asiya ölkələrinin yer aldığını görərik. Şərqi Avropanın Ukrayna (27746), Polşa (4125), Belarus (18562), Moldova (2950), Macarıstan (1510), Çex Respublikası (1142), Litva (1142) və s. ölkələrindən 2022-ci ildə gələn turistlərin ümumi sayı 66246-ya çatmışdır. Regional təhlildə 3-cü sırada yer tutan Cənubi Asiyanın Hindistan (60731), Pakistan (51700), Şri-Lanka (1940), Nepal (2117), Banqladeş (328) və Maldiv (78) kimi ölkələrindən Azərbaycana ötən ildə cəmi 118288 nəfər turist gəlmişdir. Ölkəmizə gələn turistlərin faiz (%) nisbətinə gəldikdə isə ilk üçlüyü 27,9%-lə RF, 19,5%-lə Türkiyə və 10,6%-lə İran bölüşdürür. Qeyd edilən dövrdə ölkəmizə gələn turistlərin 74,8%-ini qadınlar və 25,2%-ini kişilər təşkil etmişdir.

***(davamı gələn sayımızda)***

**Əmirov İmran, Sumqayıt Dövlət Universiteti, Biznesin təşkili və menecment kafedrası, baş müəllim**

